# Bakı UEFA Avropa Liqasının final oyununa hazırdır







**UEFA Avropa Liqasının final oyununa bir gün qalır. Sabah bütün futbol azarkeşlərinin diqqəti "Arsenal" və "Çelsi" komandaları arasında Bakı Olimpiya Stadionunda keçiriləcək final oyununa yönələcək. Düzdür, bu, Bakıda keçirilən ilk belə möhtəşəm yarış deyil. Artıq Azərbaycanın yeritdiyi uğurlu idman siyasətinin nəticəsidir ki, idmançılarımız beynəlxalq turnir və yarışlarda uğur qazanmaqla yanaşı, ölkəmiz möhtəşəm idman yarışlarına da evsahibliyi edir. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, FİFA U-17 Qadınlararası Dünya çempionatı – 2012, Futzal üzrə "Dördlər finalı – 2014", UEFA U – 17 Avropa Çempionatı – 2016... son illərdə Bakının uğurla evsahibliyi etdiyi və azarkeşlərin hələ də xoş təəssüratlarla xatırladığı yarışlardır.**

### *Niyə Bakı?...*

Şərq və Qərb sivilizasiyasını özündə birləşdirən Bakı tarixiliyi və müasirliyi özündə birləşdirən unikal şəhər olmaqla yanaşı, həm də mötəbər idman yarışlarının keçirildiyi mərkəz kimi tanınır. Bu, sözsüz ki, Azərbaycanın yürütdüyü uğurlu siyasətin, idmana və idmançılara göstərilən diqqət və qayğının, eləcə də ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuzunun nəticəsidir. Bu illər ərzində Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq və regional layihələr həyata keçirib. Təqdirəlayiq haldır ki, artıq ölkəmizin təkcə enerji deyil, həm də mühüm strateji coğrafi əhəmiyyətə malik nəqliyyat layihələrini həyata keçirməsi onun iqtisadi və siyasi nüfuzunun möhkəmlənməsinə öz müsbət təsirini göstərir.

Əlbəttə, beynəlxalq idman tədbirlərinin keçirilməsi həmin ölkə üçün nüfuz və etibar göstəricisi olmaqla yanaşı, həm də məsuliyyətdir. Beynəlxalq idman yarışlarına evsahibliyi etmək istəyən ölkə, ilk növbədə, buna hərtərəfli hazır olmalı, tələblərə cavab verməlidir. Buraya yarışların keçirildiyi yüksək idman strukturları, xarici qonaqları qarşılayacaq yüksək səviyyəli mehmanxanaların olması, yüksək xidmətlə yanaşı, həm də təhlükəsizlik məsələləri də xüsusi önəm daşıyır. Bu gün dünya turizm təşkilatları təhlükəsizlik məsələsinə də xüsusi önəm verir, sorğular nəticəsində mütəmadi olaraq təhlükəsiz ölkə və şəhərlərin reytinqini müəyyən edirlər.

Bakı hər zaman bu cür sorğu və tədqiqatlarda irəlidə olub. Məsələn: keçən il Numbeo tədqiqat portalında Bakı dünyanın ən təhlükəsiz 41 şəhəri sırasında yer alıb. Bu da onu göstərir ki, dünyada terror və qarşıdurmaların, cinayətkarlığın mövcud olduğu ölkələrdən fərqli olaraq, Bakı beynəlxalq yarışların keçirilməsi və eləcə də turistlərin səfər etməsi üçün münasibdir. Bundan başqa, son illər müasir idman infrastrukturunun, Gimnastika Arenası, Atıcılıq Mərkəzi kimi mərkəzlərin, eləcə də Olimpiya Stadionunun tikilib istifadəyə verilməsi də beynəlxalq və yerli yarışları yüksək səviyyədə keçirməyə imkan verir.

Bu gün təkcə onu xatırlatmaq yerinə düşər ki, Avropada ilk idman oyunları olan I Avropa Oyunlarına məhz Azərbaycan evsahibliyi edib. Ölkəmizin adının idman tarixində ilklər siyahısına düşməsi qürurverici haldır. 2015-ci il iyunun 12-də Bakı İdman Sarayında keçirilmiş Birinci Avropa Oyunlarının açılış mərasimini bir çox idman azarkeşləri indi də xoş təəssüratla xatırlayırlar. Odur ki, indiyədək ölkəmizin evsahibliyi etdiyi yarışlardan qazandığı təcrübə də onu göstərir ki, UEFA Avropa Liqasının final oyunu üçün Bakının seçilməsi və namizədliyinin dəstəklənilməsi təsadüfi deyil. Çünki Bakı bu cür oyunların keçirilməsində böyük təcrübə və imkanlara malikdir.

2017-ci il fevralın 2-də Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) UEFA Çempionlar Liqası və UEFA Avropa Liqası turnirlərinin final oyununun təşkili ilə bağlı Bakı Olimpiya Stadionunun namizədliyini irəli sürmüşdü. UEFA Avropa Liqasının final oyununa evsahibliyi etmək üçün isə Bakı Olimpiya Stadionundan başqa, namizədlər arasında dünyanın Dinamo Arena (Tbilisi, Gürcüstan), Frankfurt Stadion (Frankfurt, Almaniya), Arena Stuttgart (Ştutqart, Almaniya), Hampden Park (Qlazqo, Şotlandiya), Estadio Ramon Sanchez Pizjuan (Sevilya, İspaniya) və Beşiktaş Arena (İstanbul, Türkiyə) kimi müasir stadionları vardı. Sözsüz ki, bu cür müasir idman stadionları arasında rəqabətdən uğurla çıxmaq Bakı üçün böyük bir nailiyyətdir.

2011-ci il iyunun 6-da Azərbaycan futbolunun 100 illik yubileyində Bakı Olimpiya Stadionunun təməlqoyma mərasiminin keçirilməsi ilə müasir idman strukturlarına daha bir mərkəz daxil edildi. İndiyə kimi I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimləri ilə yanaşı, Azərbaycanla İtaliya millilərinin matçı (10 oktyabr 2015), UEFA Çempionlar Liqasının 2017–2018-ci il mövsümünün "Qarabağ" və "Roma" klubları arasında oyun məhz Bakı Olimpiya Stationunda reallaşıb.

Futbol azarkeşlərinin səbirsizliklə gözlədiyi AVRO-2020-də isə gələn ilin yayında qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyununun burada keçirilməsi nəzərdə tutulur.

### *Turistlər üçün yüksək şərait*

Neçə gündür ki, Bakıda Avropa Liqasının final günü həyəcanı və əhval-ruhiyyəsi hiss edilməkdədir. "Qız qalası"nın yaxınlığında, "Azneft" meydanında və şəhərin digər mərkəzi küçələrində final oyunu ilə bağlı plakatlar asılıb və bu oyunu simvolizə edən futbol topu yerləşdirilib. Bakıda otellərin çox hissəsi bron edilib. Bu da onu göstərir ki, final oyununu canlı izləmək istəyənlərin sayı kifayət qədərdir və iddia edildiyi kimi, Bakı heç də Avropa ölkələri kimi bahalı deyil. Əksinə, burada qiymətlər Avropa ilə müqayisədə aşağı və sərfəlidir.

Heydər Əliyev Beynəlxalq Aeroportu çox sayda təyyarə və sərnişinləri qəbul etmək məqsədilə xüsusi tədbirlər planı hazırlayıb və Bakının hava limanının bütün xidmətləri gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək. Finalın keçiriləcəyi dövrdə Heydər Əliyev Beynəlxalq Aeroportunda bütün reyslərin maneəsiz yerinə yetirilməsi və terminaldan çox sayda sərnişinin rahat keçməsi üçün lazımi şərait yaradılacaq.

UEFA Avropa Liqasının final oyununa gələcək turistlər üçün yeni sayt istifadəyə verilib. Saytda azarkeşləri maraqlandıra biləcək mövzularda dolğun məlumat verilir. Saytda Bakının turizm əhəmiyyətli məkanları, oyunun keçiriləcəyi Bakı Olimpiya Stadionu, nəqliyyatdan istifadə qaydaları barədə məlumat yerləşdirilib. Artıq oyunu izləmək üçün Bakıya gəlmək istəyən ingilis turistlər saytdan yararlanır, otel, şəhərin gəzməli yerəri, oyunun keçiriləcəyi məkan, viza və s. zəruri məlumatları əldə edirlər.

### *Qərəzli "qara piar" və uğurlar qazanan Azərbaycan*

Avropa Liqasının finalının Bakıda keçirilməsi ərəfəsində ölkəmizlə bağlı antiazərbaycan qüvvələrin dəstəyi ilə qarayaxma kampaniyaları başladı. Sözsüz ki, Azərbaycanın evsahibliyi etdiyi hər bir mötəbər yarış ərəfəsində bəzi beynəlxalq nəşrlərdə ölkəmizlə bağlı qərəzli məlumatların yayımlanması başadüşüləndir. İnsan haqları adı altında ölkəmizə təzyiq göstərmək və onun imicinə zərbə vurmaq cəhdləri təzə deyil. Bu halların I Avropa Oyunları, "Avroviziya" mahnı müsabiqəsi və digər beynəlxalq yarışlarda şahidi olmuşuq. Səbəb sadədir: ölkəmizin günü-gündən artan nüfuzuna zərbə endirmək və yarış ərəfəsində Azərbaycanla bağlı mənfi təəssüratlar yaratmaq. Bu, ölkəmizin uğurlarının bəzi dairələrdə təşviş doğurması və qısqanclığından irəli gəlir.

Budəfəki qarayaxma kampaniyasında "Arsenal" klubunun futbolçusu Henrix Mxitaryanın oyunda "təhlükəsizlik" səbəbindən iştirak edə bilməməsi məsələsi vurğulansa da, həmin iddia iflasa uğradı. Çünki rəsmi Bakı həm UEFA, həm də "Arsenal" klubuna onun ölkədə olacağı müddətdə tam təhlükəsizliyi ilə bağlı zəmanət verdiyini açıqladı. Bundan başqa, ölkəmizdə keçirilmiş bir sıra beynəlxalq yarışlarda erməni əsilli idmançılar da iştirak ediblər və onların həyatlarına heç bir təhlükə olmayıb. Odur ki, "Arsenal"ın oyunçusunun təhlükəsizliyə görə oyunda iştirak etməməsi və Bakının təhlükəli olması təəssüratını yaratmaq cəhdləri də uğursuzdur. Futbol azarkeşlərini isə bu cür qarayaxma kampaniyasına daxil edilən qərəzli məlumatlar deyil, həyəcanlı, maraqlı qarşılaşma və Bakıdan xoş təəssüratlarla ayrılmaq maraqlandırır.

### *195-ci qarşılaşma*

İngiltərə futbolunda əzəli rəqiblər hesab edilən "Arsenal" və "Çelsi" arasında Avropa Liqasının final görüşü sayca 195-ci oyun hesab edilir. Futbol tarixində maraq doğuran bu həlledici qarşılaşmanın məhz Bakıda "Olimpiya" stadionunda keçirilməsi də yarışa ayrı bir özəllik qatır.

Ümid edirik ki, azarkeşlər bu oyundan və idman şəhəri olan Bakıdan yüksək təəssüratlarla ayrılacaqlar.

*Əfsanə BAYRAMQIZI,*
*"Xalq qəzeti"*